*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 88-94* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.88*

# Çingiz Əlioğlunun “Yuxular şəhərində” poemasında sürrealist izlər

**Səbirə Müzəfərli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: sebirememmedova50@gmail.com

**Annotasiya.** Çingiz Əlioğlu Azərbaycan poeziyasının modern-avanqard nümayəndələrindən biridir. O, yaradıcılığı boyu poetik axtarışlardan yorulmamış, daim fərdi üslubu və avanqard dünyagörüşü ilə diqqət çəkmişdir. Gözlənilməz poetik baxışı, cürətli eksperimentləri, azad düşüncə tərzi, assosiativ bədii təfəkkürü, intellektuallığı Ç.Əlioğlunu ədəbi çağdaşlarından, eləcə də boz sıradan ayırırdı. “Yuxular şəhərində” poeması şairin ilk ictimai-siyasi çalarlı qələm nümunəsidir. Poema qələmə alındığı dövrün xarakterik xüsusiyyətləri ilə yaxından səsləşir. Bir çox ittihamlara rəğmən poema 16 ildən sonra çap olunur. Məqalədə poemanın əsasını təşkil edən sosial-siyasi motivlərin interpretasiyasından, sürrealizm çərçivəsində elmi təhlilindən bəhs olunur.
**Açar sözlər:** Çingiz Əlioğlu, avanqard, poema, yuxu, sürrealizm

**Məqalə tarixçəsi:** göndərilib – 05.04.2024; qəbul edilib – 19.04.2024

# Surrealistic traces in Chingiz Alioglu's poem “In the city of dreams”

**Sabira Muzaffarli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: sebirememmedova50@gmail.com

**Abstract.** Chingiz Alioglu is one of the representatives of the modern avant-garde of Azerbaijani poetry. Throughout his entire career, he never tired of his poetic pursuits and always attracted attention with his individual style and avant-garde worldview. An unexpected vision, bold experiments, a free way of thinking, associative poetic thinking, and intellectuality distinguished Ch. Alioglu from his literary contemporaries, as well as from the gray ranks. The poem “In the City of Dreams” is the poet’s first example of a socio-political tone. The poem closely echoes the characteristic features of the time in which it was written. Despite numerous accusations, the poem was published 16 years later. The article talks about the interpretation of the socio-political motives that form the basis of the poem, and its scientific analysis within the framework of surrealism.
**Keywords:** Chingiz Alioglu, avant-garde, poem, dream, surrealism

**Article history:** received – 05.04.2024; accepted − 19.04.2024

## Giriş / *Introduction*

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Çingiz Əlioğlu yaradıcılığa “Xatirələr” şeiri ilə başlamışdır. Müxtəlif illərdə çap etdirdiyi “Nikbinlik” (1968), “Narlı gecə” (1974), “Vağzallar və yollar” (1974), “Soraqladı sevgi məni” (1978),

"Ömür ağacı" (1980), "Alnından ay doğan adam" (1983), "Günəşli dayanacaqlar" (1984), "Görüşdən ayrılığa" (1988), "Tanrını tanı" (1992), "Gün keçdi" (1993), "Sevib unutduqlarım" (1996), "Gicgaha sıxılan güllə" (1996), "Sevgi oyunları" (2000), "Gecə və Bahar" (2001), "Ruhumun həndəsəsi" (2003), "Şairlik bir sənət deyilmiş, qardaş" (2004), "Avand" 2004), "Fraqmentlər" (2006), "Atlantlar" (2006), "Çərçivə" (2010), "Qapı" (2014), "Qonşunun iti" (2015) adlı şeir kitabları Azərbaycan poeziyasına tamamilə yeni üsluba, estetik dünyagörüşünə malik parlaq bir şairin gəldiyini təsdiq etmişdir. Təbii ki, poeziyamızın bir çox pleyadaları ("50-cilər", "60-cılar", "70-cilər") kimi onun da yaradıcılığının ilkin dövrlərində sabiq sovet epoxasının "sərt rüzgarlar"ı əsmişdir. Amma 70-cilərin digər nümayəndələri kimi, Çingiz Əlioğlu da Azərbaycanın novator şairi – Rəsul Rzanın qayğısını daim üzərində hiss etmiş, şairin diqqətindən yayınmamışdır. Ustad Rəsul Rzanın Çingiz Əlioğluna həsr etdiyi "İstedad+Dözüm+Zəhmət" adlı məqaləsi gənc şairin gələcək yaradıcılıq yoluna mayak olmuşdur.

Rəsul Rza yazırdı: "Nə yaxşı ki...". Çingiz Əlioğlunun şeirlərindən biri belə başlayır. Onun şeirləri bir qovluq içində mənim masamın üstündədir. Oxuculara təqdim edilən bu şeirlərdən başqa, Çingizin 20-30 şeiri var. Lakin onların adları hələ oxuculara tanış deyil. Çingizin şeirlərindən ancaq biri, ya ikisi çap olunub. Əgər Çingizin bu yeganə "Nə yaxşı ki..." lirik miniatürü ilə tanış olsaydım belə, mən ona şair deyər, onun haqqında bu yazdıqlarımı tərəddüdsüz yazardım. Şairi tanımaq üçün bir xarakter şeir də kifayətdir. "Nə yaxşı ki..." şeirindəki təfəkkür Çingizin istək və imkanları haqqında söz deməyə əsas verir. Həmin şeiri oxuyarkən mən Nazim Hikmətin çinar, göl, pişik və günəşdən bəhs edən şeirini xatırladım. Böyük bir şairlə bir həvəskar gəncin sənətkarlığı, poetik ifadə, söz bitkinliyi arasında nə qədər fərq olsa da, intonasiya baxımından bu şeirlərdə bir yaxın oxşarlıq var. Ona görə yaxın oxşarlıq deyirəm ki, bu oxşarlıq təqlid, bənzətmə, hətta təsir belə deyil. Bu, yalnız poetik təfəkkür oxşarlığı, duyğu yaxınlığı, təəssürat bənzəyişidir" [8, s.218].

## Əsas hissə / *Main Part*

Azad düşüncə tərzi, assosiativ poetik təfəkkür, intellektuallıq, səs simvolizmi Ç.Əlioğlunun fərdi üslubunun göstəriciləridir.

Dövrün aktual məsələlərini poetik söz libasına bürüyən şair, yaradıcılığında şeirlərlə yanaşı, poemalara da yer vermişdir. Bu baxımdan onun ideya və məzmununa görə biri digərindən seçilən "Yuxular şəhərində" (1968), "İçərişəhərdə yağış" (1970), "Qobustan ritmləri" (1971) "Uçan işıq və kölgə" (1972), "Abşeronla vidalaşma" (1993), "Diaspora" (2003), "Of" (2003), "Xaçmaz parkında" (2004), "Bakı davam edir, şəhər yaşayır" (impressiv poema) (2014) və s. poemaları diqqətəlayiqdir. Hər poemanın konteksti yazıldığı dövrə meydan oxuyur.

"Yuxular şəhərində" poemasını 1968-ci ildə hələ 24 yaşında ikən qələmə alan Çingiz Əlioğlu onu həmin il çap etdirməyə müvəffəq olmur. Esseler, düşüncələr və müsahibələr toplusu – "Fraqmentlər" kitabında səbəbini şair belə izah edir:

"Yazını, səhv etmirəmsə, 69, ya da 70-ci ildə, artıq "Nikbinlik" adlı ilk şeirlər kitabımın nəşrindən sonra, "Azərbaycan" jurnalına təqdim etdim... Sovet dünyabaxışına daban-dabana zidd, hansısa burjua ideologiyasına xidmət edən, SOSrealizmin "parlaq" metodlarına arxa çevirməyə ürək edib, "üfunətli sürrealizm" girdabına yuvarlanan, Rembodan, Apollinerdən, Viyon və Verlenden, Dalidən... daha nə bilim, kimlərdən bəhrələnən, siyasi cəhətdən "etibarsız element" kimi qiymətləndirmişdilər mən binəvanı..." [5, s.44]

Nəhayət, "öz oxucusuna doğru 16 il yol gedən poema" [5, s.44] 1984-cü ildə "Günəşli dayanacaqlar" adlı kitabında ilk dəfə işıq üzü görür.

Çingiz Əlioğlunu müasirlərindən fərqləndirən cəhətlərdən biri onun şeirlərinə "başlıq seçmə mədəniyyəti" idi. Bu, bir tərəfdən, şairin "mövzu repertuarının genişliyindən və yüksək zövqündən irəli gəlirsə, digər tərəfdən, istənilən mövzunu modern poeziyasının malı etmək istedadından gəlir" [6].

"Yuxular şəhərində" əsəri poema-fraqmentdir. Poema başdan-başa canlı, poetik lövhələrlə doludur. Ayrı-ayrı poetik fraqmentlər bir-birilə

üzvi vəhdətdə birləşərək oxucuda hadisələrlə bağlı dolğun təsəvvür yaradır.

Əsərdə təsvir olunmuş hadisələr XX əsrin ictimai-siyasi, ədəbi-mədəni sferası fonunda cərəyan edir. Şair poemada liro-subyekt kimi öz pro-obrazını seçmişdir. Əsərin məzmunu, əks etdirdiyi tarixi mühitlə bədii "mən"in bu mühitə reaksiyasının dialektik münasibətindən qaynaqlanır. Liro-subyektin ədəbi aləmlə ilk tanışlığı, çıxdığı yolda üzləşdiyi çətinliklər, dövrün ruporuna çevrilmiş siyasi-poetik tələblər poemada simvollar vasitəsilə şifrələnərək adresat öhdəliyinə verilmişdir. Həmən simvollar – "altmışıncıların yaradıcılığında özünəməxsus rəmzi obrazların, ümumən poetik rəmzi təfəkkürün aparıcı mövqeyə çıxması mövcud ictimai-siyası təzyiq və təsirlərin bədii fikir aləmindəki əks-sədası idi" [8, s.166]. Şair poemanın tekstini montajvari yığsa da, sonda məna bütövlüyünə nail olmağı bacarmışdır. Bundan əlavə, şair bu poemada "yuxugörmə fenomeni"ndən bir fənd kimi istifadə etmişdir. "Yuxugörmə" effekti mətnlərdə yazıçıların, şairlərin bədii məqsədlərinə çatmaqdan ötrü müraciət etdiyi bədii vasitədir. Sıradan insanların yuxularından fərqli olaraq, yaradıcı qrupların gördüyü poetik yuxular estetik funksionallıq daşıyan mətnlərdir ki, bu mətnlər vasitəsilə sənətkarlar ruhən özlərinə azadlıq bəxş edirlər.

"Yuxugörmə" metodu həm "qəhrəmanın psixoloji portretinin mühüm tərkib hissəsi kimi, həm də "tarixin gərdişinin proqnazlaşdırıcısı" [10] kimi səciyyələnir. Bu zaman yuxu, adətən, psixoloji, ictimai-siyasi məna kəsb edir. Çingiz Əlioğlunun lirik "mən"inin yuxugörməsi isə hər iki funksiyanı özündə cəmləşdirir.

Şair poemaya "Xatirələr" şeirindən bir parça ilə giriş verir. Epiqraf səciyyəli bu kiçik parça hadisələrin sonrakı gedişatı üçün oxucuya ipucu olur.

*"Gecədir,*
*gecdir artıq.*
*Gəlib yuxu dənizinin*
*Sahilinə çatdıq.*
*Məni gözləyir*
*Sahildəki bu tək qayıq –*
*Çarpayı döşək:*
*Yatmaq vaxtıdır*
*Yataq – görək..."* [4, s.308]

1960-1970-ci illərdə poeziyada beynəlxalq mövzular, beynəlmiləl motivlər ötən əsrin 30-cu illərindən başlanan poetik ənənənin davamı idi. Bu ənənəvilik Çingiz Əlioğlu yaradıcılığında yeni çalarlarla özünü büruzə vermişdir. Ümumiyyətlə, milli özünüdərk epoxası "altmışıncılar" pleyadasının poeziyada sətiraltı mənalardan, "çoxqatlı istiarələr"dən, rəmzi obrazlardan istifadəsinin intensivləşdiyi dövr kimi xarakterizə edilir.

Sovet dönəmində "söz azadlığı"ndan məhrum edilmiş sənət adamları etirazlarına, dissident mövqelərinə poetik don biçmək məcburiyyətində qalmışdılar.

*Yəhərsiz yüyənsiz*
*kəhər kimidir*
*çarpayı qayığım.*
*Hələ ki*
*ayıra bilmirəm mən də –*
*yatmışam, yoxsa oyağam...*
*Hər tərəf bürünüb*
*Rəngsiz dumana.*
*Dəniz səhrasından*
*keçib gedirəm*
*əlhavası, gümana...* [4, s.309]

Sənətdə dəniz obrazı istər milli, istərsə də dünya ədəbiyyatında sonsuz sevgini simvolizə edir. Lakin poemada "dəniz səhrası" ifadəsi kontekstə uyğun olaraq, "mübarizə meydanı" kimi şifrələnmişdir. Psixoanaliz nəzəriyyəsinin banisi Z.Freyd tövsiyə edir ki, "ədəbi yuxuları psixoanalitik kontekstdə deyil, simvol müstəvisində öyrənmək lazımdır" [7]. Çünki simvolik təfəkkür hadisənin və ya obyektin mahiyyətini aydınlaşdırmaqda açar rolunu oynayır.

*İndi qarşıda*
*üfüq görürəm –*
*ilğım kimidir.*
*Kim bilir üfüqdə*
*nələr gizlənir?*
*Məni orda,*
*xəyalımın*
*nə vaxtsa yaratdığı*
*həqiqətmi, əfsanəmi gözləyir?...* [4, s.309]

Qeyd etmək gərəkdir ki, yeni lirik qəhrəman "zamanın ədəbi-estetik zövqünü də, ictimai-mənəvi münasibətlər sistemini də yeniləyəcək bir enerjinin daşıyıcısı idi" [8, s.163]. Bu enerji li-

rik qəhrəmanı ədəbi sferanın trafaret qapılarını sındıraraq, öncül baxışlarla cəsarətli addımlar atmağa şövq edirdi. Bəlkə də, "qarşıdakı üfüq" XX əsr poeziyasının yeni cığırlarının bədii əksi idi?!

Poemada lirik qəhrəmanın gördüyü yuxular o qədər real təsvir olunur ki, onu irreallıqdan ayırmaq çətin olur. S.Averinsevin fikrinə görə, "sənətkar ictimai yuxugörəndir, belə ki, hamının yerinə yuxunu o görür; yuxu sakitləşdirmir, kompensasiya etmir, həmişə bu və ya digər dərəcədə xəbərdar edir" [1, s.123].

*Yolüstü*
*tanımadığım*
*neçə-neçə adamın*
*yuxusuna girirəm.*
*Hərdən də köhnə*
*Tanışları görürəm.*
*Odur, bax, cəmi bircə ay*
*Bundan qabaq*
*ərə getmiş...filankəslə,*
*içərişəhərli...filankəsin əri*
*bağçada öpüşürlər... –*
*köhnə sevgililər*
*yuxularda görüşürlər.* [4, s.310]

Şair, yuxu fraqmentində "ərə getmiş filankəslə, içərişəhərli filankəsin əri" epizodik obrazları ilə ikiüzlü cəmiyyətə etirazını ifadə edir.

"Ç.Əlioğlunun rəssamlarla, heykəltəraşlarla, qrafiklərlə asan "dil tapa bilməsi", bu sənət sahibləri ilə ortaq dünyagörüşü və bədii zövqü paylaşması onun avanqardizmini şərtləndirən amillərdəndir. Avropadan gələn bu ənənə isə Azərbaycan poeziyasında az hiss olunur" [6]. Buna baxmayaraq, Çingiz Əlioğlu bu tendensiyanı poeziyasında sərgiləməyi bacarmışdır.

*Arxivi arasan*
*Kimi istəsən*
*Yuxusunu taparsan.*
*Ayrıca rəflərdə saxlanır*
*Yuxuları*
*Üzeyirin,*
*Servantesin,*
*Pikassonun...*
*...Sən bir işə bax:*
*Şeir yazırmış*
*Yuxularının birində*
*Qoca Pikasso.* [4, s.309]

Poetik mətnyaratma prosesində assosiasiyalara meyil Çingiz Əlioğlunun yaradıcılığına da xasdır. Beynəlxalq səviyyədə tanınmış və ayrı-ayrı xalqlara, dinlərə, məkanlara məxsus korifeyləri bir misraya, bir bəndə yerləşdirməklə oxucu təsəvvüründə bütöv poetik tablo yaradır.

Poemanın "ANTİTHENRİKE" adlı hissəsində poetik "mən" gərdişi-dövrandan şikayət edir. Ancaq o, pessimistliyə qapılmır. Sovet dövrünün təlimatlarından usanmış lirik qəhrəman qırmızı qaranlıqlar içərisində yaşıl işıq görməyə tələsir. Qəlbində tez bir zamanda SSRİ imperiyasının son bulacağına, yenidən müstəqillik abhavasında qanad açacağımıza inam bəsləyir.

*İçimdə*
*bir qayğısız*
*gülüş var.*
*Sonuncu*
*kibrit dənəsi kimi*
*qoruyuram onu.*
*Bir gün*
*ürəyimə*
*gecə enəndə,*
*umudun nə bir ulduzu,*
*nə işartısı görünməyəndə*
*çəkəcəyəm həmin qəhqəhəni*
*...Yaranacaq*
*ləzzətli gülüşlərin*
*işıqlı izdihamı.*
*Belə başlayacaq*
*Dünyanın gülüş bayramı...*
*...Yanacaq, parlayacaq*
*gülüşlərin məşəli*
*Gülüş məşəliylə*
*çıxacağıq yürüşə*
*Dırmanacağıq*
*Böyük sevinc dağının*
*Səfalı zirvəsinə.* [4, s.312]

"Gülüş" təkriri şairin təsvir etdiyi hadisələrə dinamizm, həyəcan gətirir. Şair poemanın bu hissəsini antiteza olaraq "Rekviyem" adlandırır.

*heç özümüz də bilmədən*
*Yanıb kül olacağıq*
*Gülüşümüzün alovunda.*
*Gülüşdən sərxoş*
*Bir ölümlə öləcəyik!*
*...Öləcəyik, yenidən dirilib*

*Gülməkdən ölməyimizə*
*Acı-acı gülmək üçün...* [4, s.313]

Şeirdə ələmdən doğan nəşə – "gülüş" bir anda ironik gülüşə çevrilərək güclü təzad hissi yaradır. Və bu təzad lirik "mən"in emosionallığının bədii təcəssümü kimi ifadə olunur.

*...Yandakı divarda*
*balaca dəmir qapı*
*uzunsov, darısqal*
*bir otağa açılır.*
*Bu otaqda*
*Hitlerin,*
*Çingizxanın,*
*Salyerinin...*
*Yuxuları saxlanır.* [4, s.314]

Poemada yuxu personajlarının seçimi də maraq doğurur. Hitlerin, Çingiz xanın, Antonia Salyerinin eyni kontekstdə verilməsi də əbəs deyildir. Şair bu obrazların simasında şər qüvvələri ümumiləşdirir.

Söz çevikliyi, lakonizm şairin assosiativ poetik təfəkkürünün məhsullarıdır ki, bu da, öz növbəsində, 1960-70-ci illər şeirinin özəlliklərindən biri hesab olunur.

*Blits-krik!*
*Blits-krik!*
*Blits-krik!*
*Yanır Paris!*
*Bir parça oddur sinəmdə hirs!*
*Blits-krik!*
*Blits-krik!*
*Yansın Moskva!*
*Soyutmaz hirsimi heç*
*Bu saat ən sərin kvas!* [4, s.314]

"Yuxular şəhərində" poemasında "estetik baxımdan Azərbaycan poeziyası üçün yeni olan güclü bir Avropa dalğası var" [3].

*"Blits - ...// Dayan Adolf!// yadındamı sən, balaca ikən şəkil çəkməyi sevərdin qəlbən. // Axı, Adolf, dayan, bir dayan.. // - Şvayn! Səsini kəs! Axı sən kimsən, hardasan, görünmürsən bəs?! // Aha, bildim!// Sən İudasan! // Ha!Ha! // Tez olun! // Tutun onu! // Verin aşını.// Kəsin gilyotinlə hərifin başını! // Ziq – hayl! // Mən Adolfam! // Yandırıb Yer kürəsini Sevimli Skortseni, // Səninlə qolf oynayacağam!"* [4, s.315] misralarında orta əsr inkvizisiyalarını işıqlandıran motivlər Avropa dalğasını yaradan həlqələrdir. Şair bu motivlər vasitəsilə ümümdünya müstəvisində baş vermiş ictimai-siyasi gerçəklikləri, xüsusən də mənsub olduğumuz regionun həqiqətlərini göstərmək istəmişdir.

"Hitlerin yuxusu" fraqmenti siyasi məna daşıyır. "Hitler" qanlı rejimin simvoludur. Hitlerin "ildırımsürətli müharibəsi" ilə bağlı assosiasiyaları islam və Şərq dünyası kontekstində ümumiləşərək şairin demək istədiyi fikrin bədii kəsərini artırmağa nail olur. Bu təsvir həm də milli yaralara işarədir.

*Blits-krik!*
*Yansın Bağdad,*
*Tehran, Dehli!-*
*Bütün yer üzünün*
*Mənfur müsəlman əhli...* [4, s.315]

Soyuq, şaxtalı, yuxulu şəhərin qəfil titrəməsi, insanların hayqırışı, tankların səsi, bir sözlə, xalq müsibəti emosional bir təhkiyə ilə təqdim olunur.

*Hardansa maşın keçir...*
*Gecənin sükutunu*
*O gecikmiş maşının*
*Qəfil səsi yalayır. –*
*Yatmış şəhər yuxuda*
*Beləcə sayıqlayır...* [4, s.316]

"Yuxular şəhərində" poemasında diqqətçəkən məqamlardan biri də şairin poetikləşdirdiyi "külək" obrazıdır. "Külək" poemada dualistik funksiyada – həm pozitiv, həm də neqativ mövqelərdə mənalanır.

"Gecənin ətəyini // hey yandırır işıqlar. // külək də yuxuludur, // hey əsir, hey əsnəyir. // Oxuduğu layladır, // bayatıdır, ya nədir" [4, s.316] misralarında şair anaya məxsus əlamətləri simvolik şəkildə "külək" obrazına transformasiya etmişdir. Lakin sona doğru "külək" müsbət xarakterin daşıyıcısı rolundan çıxaraq mənfiləşir. Liro-subyekt küləyin yaratdığı qanlı peyzajdan dəhşətlənir:

*İstəyirəm qışqıram:*
*"- Külək, kiri!*
*Dəniz, sus!"* – [4, s.319]

Və ya:

*Lənətə gəlmiş külək,*
*Heç olmasa*
*Bircə anlıq*

*Dayan, kəs, sus!*
*SOS!* – [4, s.320]

Bu nidalar üsyankar ruhun emosional təzahürüdür.

*İndi də*
*iclas salonundayam.*
*Yığılıb bir yerə*
*neçə gödək, uzundraz*
*yuxuda nələri görmək*
*məsələsi üstündə*
*yırtırlar boğaz.*
*Birisi durub*
*kürsüyə qalxır*
*salona baxıb,*
*nitqə başlayır.*
*Kiminsə köhnə yuxularından*
*misal gətirib,*
*zəhmli, ağır*
*sitatları o,*
*mauzer kimi*
*mənə tuşlayır:*
*"- Belədir, əzizim!*
*Böyük filankəsin*
*Böyük yuxusunca*
*Yuxularda sən*
*Filan şeyləri*
*Görməlisən..."*
*...Bu danışıqlardan*
*Təngə gələrək*
*Çəkilirəm küncə,*
*"Görüb-eşitdiklərim*
*Yuxudur." – deyə*
*Bağırıram... güclə.* [4, s.317]

Tədqiqatçıların göstərdiyinə görə, Çingiz Əlioğlunun belə bir fikri var: "Mənim üçün, əslində, şeirin mövzusu yoxdur. Mən mövzuya şeir yazmıram. Mən zamanın müxtəlif anlarında, məqamlarında keçirdiyim duyğuları sözə çevirirəm [2]. Bu misralarda da sovet təbliğinin, hakim ideolojisinin tərənnümünün zorla poeziyaya gətirilməsinə qarşı açıq tendensiya sezilir.

Şairin poeziyasının ictimai kəsərini ifadə edən Vilayət Quliyev, doğru olaraq, yazmışdır ki, "bir qədər patetik səslənsə də, deməliyəm ki, son illərdə Azərbaycanda baş verən gərgin mənəvi və siyasi proseslərin poetik dərki və araşdırılması üzərində qurulmuş şeirlərində Çingiz yalnız öz fərdi duyğularının deyil, hamımızın fikir və düşüncələrinin tərcümanı kimi çıxış edir" [9, s.8].

## Nəticə / *Conclusion*

Təhlilimiz belə qənaətə gəlməyimizə əsas verir ki, Çingiz Əlioğlu bədii detallar, hiponeyalar, simvollar vasitəsilə dövrə münasibətini "Yuxular şəhərində" poeması ilə çatdırmağa müvəffəq olmuşdur. "Yuxular şəhərində" poeması avanqard meyilli, sabiq sovet dövrünün naqisliklərinin, eybəcərliyinin Çingiz Əlioğlu dilində poetik təqdimatının bariz nümunəsidir. Metaforik və assosiativ tərzdə Sovet ideolojisinə meydan oxumağa çalışmışdır.

Poema Rəsul Rzanın "Rəngli yuxular" şeirlər silsiləsi ilə ideya-struktur baxımından yaxından səsləşir.

## Ədəbiyyat / *References*

1. Аверинцев, С.С. Аналитическая психология К.-Г. Юнга и закономерности творческой фантазии // О современной буржуазной эстетике: Сб. ст. Вып. 3. – М., 1972.
2. Cəmil, A. Mən mövzuya şeir yazmıram. "Ədəbiyyat qəzeti", 2010, 28 may.
3. Çingiz Əlioğlu–75... Şairin yaradıcılığı haqqında Səlim Babullaoğlu ilə Azər Turanın söhbəti // https://edebiyyatqazeti.az/news/muzakire/3987-cingiz-elioglu-75
4. Əlioğlu, Ç. "Tanrını tanı". Şeirlər, lirik poemalar. – Bakı: Yazıçı, 1991. – 336 s.
5. Əlioğlu, Ç. "Fraqmentlər" (esselər, düşüncələr, müsahibələr). – Bakı: Çinar-Çap, 2006. – 293 s.
6. Kamal, R. "Çingiz Əlioğlu şeiri: Dilin magik təcrübəsi". "Ədəbiyyat qəzeti", 2018, 31 mart.

7. Kamal, R. "İki şair yuxu görürdü". http://www.anl.az/down/meqale/edebiyyat/2018/mart/581968.htm
8. Qasımbəyli, Y. "Rəsul Rza və ədəbi çağdaşları" (müqayisəli-tipoloji araşdırmalar). – Bakı: Elm və təhsil, 2018. – 240 s.
9. Quliyev, V. Tanrı – Ucalıq zirvəsi. Çingiz Əlioğlu. "Tanrını tanı". Şeirlər, lirik poemalar. – Bakı: Yazıçı, 1991.
10. Zeynalova, D. Bədii əsərdə yuxugörmə və onun funksiyası. https://dergipark.org.tr/tr/download/article-file/33560

## Сюрреалистические следы в поэме Чингиза Алиоглу «В городе снов»

**Сабира Музаффарли**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: sebirememmedova50@gmail.com

**Резюме.** Чингиз Алиоглу – один из представителей современного авангарда азербайджанской поэзии. На протяжении всего своего творчества он не уставал от поэтических занятий и всегда привлекал внимание своим индивидуальным стилем и авангардным мировоззрением. Неожиданное видение, смелые эксперименты, свободный образ мышления, ассоциативное поэтическое мышление, интеллектуальность выделяли Ч.Алиоглу среди литературных современников, а также из серых рядов. Стихотворение «В городе мечты» – первый образец общественно-политического тона у поэта. Стихотворение тесно перекликается с характерными особенностями того времени, в которое оно было написано. Несмотря на многочисленные обвинения, стихотворение удалось опубликовать спустя 16 лет. В статье говорится об интерпретации общественно-политических мотивов, составляющих основу стихотворения, и его научном анализе в рамках сюрреализма.
**Ключевые слова:** Чингиз Алиоглу, авангард, поэма, сон, сюрреализм